# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 04 (80) / 2023













# Göydən üç alma düşdü

***Bu mənəm – İncəhörüm. Yenidən görüşünüzdəyəm. Gəzdiyim, gördüyüm yerlərdən sizə xəbər gətirmişəm. Ötən günlərdə “Göydən üç alma düşdü” adlı nağıl günləri keçirildi. Bilirəm, siz sevimli dostlar da elə mənimlə idiniz. Elə isə gəlin hamılıqla tədbirdə iştirak edə bilməyən dostlara möhtəşəm gün haqqında danışaq.***









Dostlar, 21 – 23 iyun 2023-cü il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə geniş oxucu auditoriyasını əhatə edən nağıl günləri keçirildi. Qonaqlar arasında Bursa Bələdiyyə nümayəndələri, eləcə də nağılçı və musiqiçilər tədbirə rəng qatdılar. Söylənilən hər bir nağıla dərin diqqət qazandıran incə məqam isə, nağılların qədim türk musiqi alətlərinin sədaları altında deyilməsi oldu. Uşaqların böyük marağına səbəb olan tədbir azyaşlılarla yanaşı, böyüklərin də diqqət və sevincinə səbəb oldu. Türk dünyasının nağıl qəhrəmanlarının personajları ilə birlikdə oxuyan, oynayan uşaqlar hətta səhnələşdirilmiş bəzi nağıllarda da yer aldı. Məktəblilərin aktiv və səmimi iştirakı qonaqları olduqca sevindirdi. Qədim naxışlarla işlənmiş mütəkkə və nalçalar üzərinə əyləşmiş ozan və nağılçılar öz qeyri-adi çıxışları ilə iştirakçıları sanki quş qanadına alıb nağıllar aləminə apardı. Tədbirin təşkili çox möhtəşəm idi.

Onu da deyim ki, nağıl günlərindən sonra qonaqlar kitabxanamızı görməyə gəldi. Hilal xanım Koçyigit isə tərtibçisi olduğu “Türk dünyası masalları” nağıl kitabını F. Köçərli adına Respublika Uşaq Kitabxanasının fonduna hədiyyə etdi. Onlar azyaşlı oxucuları da unutmadılar, əlfəçinlərlə nağıl personajlarından nümunələr səhnələşdirdilər. Nağıl günlərinin təşkil edilməsində əsas məqsəd 7-dən 77-yə oxuculara asudə vaxtının səmərəli təşkili və oxu mədəniyyətinin kütləvi şəkildə təbliğidir.

Sevimli dostlar, əgər həmin gün ilə bağlı maraqlı hadisə və ya sevincinizi bizimlə və iştirak edə bilməyən dostlarımızla bölüşmək istəyirsinizsə, elektron ünvanımıza yazın.

***Sizin İncəhörüm***

# Qoridən gələn qatar



Dostlar, heyranlıqla baxdığınız bu rəsm gözəlliyi qədər də qürurvericidir. Rəsmin müəllifi isə jurnalımızın fərqli nömrələrində çəkdiyi rəsmləri ilə bizi sevindirən Gülarə Salmanovadır. Onun bizə hədiyyə etdiyi rəsmi sizlərlə bölüşürük.

Şanlı tariximizdən bir anı canlandıran oxucumuzun rəsminə baxdıqda, o qatarda oxuyub misilsiz xidmətlər üçün vətənə qayıdan görkəmli vətən oğullarını təxəyyülümüzdə canlandıra bilirik.

Qori Seminariyası və onun Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi barədə müəyyən qədər məlumata sahibsiniz. Ona görə də, bu haqda sənə çox qısa məlumat verəcəyik.

Firidun bəy Köçərli bu işin reallaşması üçün mübarizəyə başlamışdı. Bu tədris ocağının Qazax şəhərinə köçürülməsində görkəmli maarifçi, pedaqoq, Firidun bəy Köçərlinin çox böyük xidmətləri olmuşdur.

Məşədi İbrahim adlı işıqlı, xalqının balalarını maarifləndirmək arzusu ilə yaşayan ziyalı insan 17 otaqlı mülkünü seminariyanın direktoru Firidun bəy Köçərliyə bağışlayır. Onu da qeyd edək ki, Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Mirzə Şərif Mirzəyev, Nəriman Nərimanov və s. kimi böyük bir ziyalı nəsli Qazax Seminariyasının yetirmələridirlər.

Firidun bəy Köçərli seminariyaya başçılıq etməklə yanaşı, Qazaxda yüzlərcə qız uşağının təhsil alması üçün yetimlər kursu təsis edir, qaçqınlara yardım fondu yaradırdı.

Dostlar, sizlər də bizə çəkdiyiniz rəsmləri, yazdığınız şeir və hekayələri hədiyyə etmək istəyirsinizsə, o zaman jurnalımızın elektron ünvanına göndərə bilərsiniz.



# Firidun bəy Köçərli

160



Vaqonda ikicə nəfər idi – Firidun bəy Köçərli və həyat yoldaşı Badisəba xanım. Qori-Tiflis uzaqlarda qaldı, Sədəfli, Ağalı, Şəmmədli məhəlləri isə Kürün o tayında. Yaxınlaşan körpüyə xeyli qalmış sürətini azaldan qatar birdən lap yavaşıyıb dayandı. Firidun bəy o anda çatdı ki, bələdçi pilləkəndə içəri soxulmaq istəyən adamları döşündən içəri itələyirdi.

– Nə olub, qatar niyə dayanıb? – Firidun bəy həyəcanla soruşdu.

Ortayaşlı zabit Firidun bəyə təəccüblə baxırdı. Gürcü dilində yanındakına nəsə deyib, əlindəki matrağı qəzəblə titrədə-titrədə nəsə soruşdu:

– Siz aparırsınız seminariyanı?

– Bəli, mən aparıram. Nə olub məgər?

Sizə kim icazə verib dövlətin əmlakını şəxsi mal kimi vaqona doldurub aparırsınız?

– Mən xalqın malını xalqın balaları üçün aparıram.

Əslində Firidun bəy seminariyanın Azərbaycana köçürülməsini çoxdan planlaşdırmışdı. Bu mühüm işə Azərbaycan maarixçiləri hələ 1884-cü ildə təşəbbüs göstərmişdilər. Onlar tələb edirdi ki, Azərbaycan şöbəsi müstəqil olsun və Azərbaycanın hər hansı bir rayonuna köçürülsün.

Qatar tərpəndi. Firidun bəy ondəqiqəlik yolda az qala on il qocalırdı. Badisəba xanım ona toxtaqlıq versə də, özü narahatlığından yer tapa bilmirdi. Xalqın maarif işığını aparan insanın arzularının puça çıxdığını görmək nə dəhşətmiş?!

Qatar fısıldayıb Poyluda dayandı. Firidun bəy perrona çıxanda, gürcü zabitlərinin vağzal rəisini axtardığını gördü. Vağzal rəisi uzaqdan Firidun bəyi görcək xoş və utancaq bir təbəssümlə :

– Salam, xoş gəlmisiniz, Firidun bəy, – dedi. Sonra üzünü gürcü zabitinə tutub:

– Siz hansı ixtiyarla dövlətin bu boyda qatarını saxlamısınız?

– Qatar geri qayıda bilməz, onu qaytarmağa heç kəs cəsarət edə bilməz.

Bir qədər söhbətdən sonra hamı birgə perrona çıxdı. Gürcü zabiti vağzala göz gəzdirib:

– Onda rüşvət verin, qatar getsin, – dedi.

Rəis gülümsünüb:

– Cənab zabit, qatar çoxdan gedib, onu bu qədər saxlamağa bizim ixtiyarımız yoxdur. Seminariya üçün narahat olmayın, artıq Qazaxa çatmaqdadır.

Firidun bəy irəli yeriyib:

– Ağalar, bəylər, – dedi, qəhərdən boğazı qurumuşdu, bir neçə dəfə öskürüb: – siz ki mənə bu təmənnasız yaxşılığı etdiniz, mən də əvəzində sizə hörmət əlaməti olaraq onu edə bilərəm ki, Qori seminariyasının Azərbaycan şöbəsini Qazaxda açım. Görünür qismət belə imiş... – əlavə etdi.

**Şəmistan Nəzirli**

*"Qoridən gələn qatar" kitabından*

Sevimli yazarlarımız

# Uşaq ədəbiyyatının sönməz çırağı Abdulla Şaiq və onun uşaq bağçası



Salam, sevimli doslar! Şadam ki, bu səhifədə də sizinləyəm. Yenə söz boxçamda yeni-yeni məlumat və maraqlı bilgilərlə gəlmişəm. Elə isə yaxın oturun.

Bu gün sizlərə Azərbaycan uşaq ədəbiyyatının banisi, bütün dövrlərin sevilən siması, böyük Abdulla Şaiqin uşaq bağçası haqqında məlumat vermək istəyirəm.

Uşaqlar, Şaiq əfəndi özü hələ sağlığında simvolik - mifik obraza çevrilmişdi. Sizin dil açar-açmaz söylədiyiniz "Xoruz", "Keçi" və s. şeirləri də bu təkrarsız imza sahibi "müdrik qoca" nın qələmindən süzülən unudulmaz misralardır. Elə bu səbəbdəndir ki, sizin ən çox sevimli ünvanınız olan Firidun Bəy Köçərli adına Respublika Kitabxanası ayrı-ayrı illərdə kitabxanada ədibin adı ilə bağlı müxtəlif tədbirlər keçirmiş, şairin təkrarsız yaradıcılığını uşaqlara tanıtmış və onun layla kimi ruhumuzu oxşayan şeirlərini səsləndirmişdir. Bilindiyi kimi, Azərbaycan milli uşaq ədəbiyyatının incilərini yaratmış ədib həm də mükəmməl bir pedaqoq idi. 15 illik məktəb təcrübəsi olan Abdulla Şaiq uşaqları hər zaman düşünür və onlara yeni bir həyat bəxş etmək istəyir. Beləliklə, o, Bakıda uşaq bağçası yaratmaq fikrinə düşür. A.Şaiq bu məqsədlə aidiyyəti orqanlara ərizə yazaraq müraciət etdi. Ərizədə uşaq bağçasının ünvanı da göstərilirdi.

Abdulla Şaiq başqa adlarla yanaşı, "uşaq bağçasının müdiri" titulunu da daşıyır. Onun uşaq şeirlərinin bir qismi öz bağçasının uşaqlarına həsr olunmuşdur.



## Cücəm

Ay kiçicik, soluq cücəm,
Boynu buruq, yoluq cücəm!

Açma o nazlı dimdiyin,
Tək gəzinib sıxılma çox,
Ağlayıb nalə qılma çox.

Qəm yemə, sus, bir az dayan,
Mən olaram sənin anan.

Səni o səslə səslərəm.
Dən, su verib də bəslərəm.

Ağlama, ağlama, gözəl,
Qaç yanıma, dayanma, gəl!

## Quzu

Bir obada körpə quzu
Mələr-mələr, qaçar düzü,
Anasın axtarar gözü.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Gün əyildi, çökdü duman,
Sürü qayıtdı otlaqdan;
Səs-küy ilə doldu hər yan.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Qoyunları çoban yığar,
Fatı xala gəlib sağar;
Quzum mələr, durub baxar.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Anasını quzum görər,
Ayaqların yerə dirər,
Məməsini tapıb əmər.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Quzum çıxdı göy otlağa,
Yanaşdı bir boz oğlağa,
Çıxdı onunla oynağa.
Dedim: – Qaçma, gözəl quzum,
Səni mən bəslərəm özüm.

Dünya ədəbiyyatından seçmələr

# PAYIZBÜLBÜLÜ QUŞUNUN TƏQVİMİ

*İtalyan nağılı*

– İyul ayından sonra avqust gəlir, – deyə yaşlı sərçə üzünü Balaquşa tutdu:

– Bu, yay fəslinin sonuncu ayıdır. Bunu yaxşıca öyrən.

– Avqust, – deyə Balaquş təkrarladı.

Sonra bu ayı necə keçirəcəyini düşünməyə başladı.

Balaquş payızbülbülü quşu idi. Bildiyiniz kimi, payızbülbülü quşları, hər yerdə qala bilmirlər; daim hərəkət etməyi, yer dəyişdirməyi sevirlər. Balaquş da bir müddət sonra havaya qalxdı. Əvvəlcə bir müddət şəhərdə yaşamaq fikrinə düşdü. Şəhər həyatından bezəndə yenidən meşəyə döndü.

Meşədə onu böyük bir sürpriz gözləyirdi. Bir ay bundan qabaq onu qovan, yuvalarına yaxın buraxmayan quşlar artıq Balaquşu yuvaya dəvət edirdilər.

– Payızbülbülü quşu, bizə gəlsənə, – biri onu görüb sevindi.

Digəri isə:

– Balaquş, gör neçə vaxtdır, görüşmürük. Haralardaydın, əziz dostum? – deyə səsləndi. Payızbülbülü quşu artıq yuvaların boşaldığını gördü. Balalar böyümüş, anaları ilə birlikdə yem tapmağa başlamışdılar. Artıq qorunmağa, bəslənməyə ehtiyac duymurdular. Balalar ana-atalarıyla eyni yuvada qalırdılar, amma artıq kimsə narahat deyildi və qonaq görəndə sevinirdilər. Əslində, artıq təkcə yuvada deyil, budaqlarda da yaşamağa başlamışdılar. Balaquş bir müddət öz qohumlarının arasında dolaşdı. Payızbülbülü quşunun müxtəlif növlərini ziyarət etdi. Sonra darıxdı, başını qarışdırmaq üçün ətrafı öyrənməyə başladı. Birdən gözünə sincab sataşdı. Böyük quyruğuyla müvazinətini saxlamağa çalışan sevimli sincab ağacdan enir, otların arasından bir göbələk qoparır, sonra sürətlə ağaca dırmaşıb göbələyi budaqların arasında gizlədirdi. Sonra eyni hərəkəti təkrarlayırdı. Ağacın budaqları arasında çoxlu göbələk vardı.

– Nə edirsən, dostum?

– Mən nə etdiyimi çox yaxşı bilirəm, -sincab cavab verdi: – Qış üçün göbələk quruduram. İndidən yeməyə bir şey toplamasam, qışda acından ölərəm. Payızbülbülü quşu təkcə sincabların deyil, başqa heyvanların da qışa azuqə topladığını müşahidə etdi. Siçanlar, porsuqlar da işləyirdilər.

O gündən etibarən payızbülbülü quşu çox yemək tapan kimi bir hissəsini qış üçün ayırmağa başladı. Toxumlardan bir neçəsini budaqların arasında, oyuqlarda gizlətdi.

– Sən nə edirsən, dostum? – onun bu hazırlığını görən qaranquş soruşdu. Topladığın azuqə bütün qışa yetəcəkmi? Qışda burada qalmaq olmaz. Mən havalar bir az soyuyan kimi isti diyarlara köçürəm!

– Bəli, amma sən qaranquşsan. Sən gedəcəksən, mən isə burada qalmalıyam. Çünki mən payızbülbülü quşuyam.

Qaranquşa cavab verən Balaquş özözünə düşünürdü: "Artıq özümə bir yer axtarmalıyam. İnsanlar tarlalarda məhsul toplayırlar. Artıq yay bitir. Soyuq qış aylarında öz yuvamda yaşamaq üçün yem ehtiyatı toplamalıyam..."





***Payızbülbülü, sənin***
***Adını kim qoyubdur?***
***Şirin nəğmələrindən,***
***Görəsən, kim doyubdur?***

***Görəndə bənövşəni***
***Ətir qoxumursanmı?***
***Söylə, payızbülbülü,***
***Yazda oxumursanmı?***

***Təki yemin bol olsun,***
***Təki kefin saz olsun.***
***Bülbül elə bülbüldür –***
***Payız olsun, yaz olsun...***






# The Storm Whale

*Noi lived with his dad and six cats by the sea.*

*Every day, Noi's dad left early for a long day's work on his fishing boat. He wouldn't be home again till dark.*

*One night, a great storm had raged around their house. In the morning, Noi went down to the beach to see what had been left behind. As he walked along the shore, he spotted something in the distance. As he got closer, Noi couldn't believe his eyes. It was a little whale washed up on the sand. Noi wondered what he should do. He knew that it was not good for a whale to be out of the water. I must be quick!*

*He throught. Noi did everything he could to make the whale feel at home He told stories about life on the island. The whale was an excellent listener.The night was drawing in and it was growing dark. Somehow, Noi kept his secret safe all evening. He even managed to snack some supper for his whale. But he knew it could not last. Noi's dad wasn't angry. He had been so busy, he had not noticed that Noi was lonely. But he said they must take the whale back to the sea, where it belonged.*

*Noi knew it was the right thing to do, but it was hard to say goodbye. He was glad his dad was there with him. Noi often thought about the storm whale. He hoped that one day, soon.... He would see his friend again.*



Как интересно!

# ЛИС В БИБЛИОТЕКЕ

**Лоренц Паули / Катрин Шерер**

*Начало в предыдущем номере*

Мышь покачала головой.

– Мне некогда. Я нашла книгу волшебных заклинаний и собираюсь учиться магии. Знаешь, Лис, тут есть целый отдел аудиокниг – возможно, твоя книга есть на компакт-диске?

Лис выглядел совершенно счастливым. Он нашел диск, взял его вместе с книгой – и ушел. Мышь закричала ему вслед:

– Только ты должен вернуть всё вовремя! И ещё надо завести на тебя карточку...

Но Лиса уже не было...

Три ночи спустя Лис снова пришёл в библиотеку. Но не один!

В пасти он нёс возмущённую Курицу. Лис сердито дёрнул Мышь за хвост.

– Какая глупость! Я уже практически поймал эту глупую Курицу, сама видишь – она у меня во рту – но тут она разворачивается и спрашивает: «А ты знаешь, что тебе ни в коем случае нельзя есть куриные кости – это очень опасно?» Она правду говорит?





Мышь недовольно махнула лапкой – она была так занята, она же изучала магию!

– Посмотри в энциклопедии и не отвлекай меня!

Курица еле дышала – но зато хорошо умела читать. Она прочла Лису статью из энциклопедии. И книгу о правилах содержания домашних животных. И поваренную книгу. А напоследок ещё и сборник сказок.

Устав от чтения, Лис и Курица крепко заснули.

Только Мышь продолжала учить колдовать. Мышь торопливо нырнула в подвал.

– Стойте! – окликнула их Мышь. – Вы не должны брать больше десятка книг за один раз! И должны вернуть всё вовремя!

Но Лис и Курица с книгами уже ушли...





# FOTOQRAFÇI BAYQUŞ




Nalan Aktaş Sönməz



ƏZİZ DOSTLAR!

Bildiyiniz kimi, mən oxumağı çox sevirəm. Çox vaxt kitabxananın kitab rəflərində maraqlı kitablar axtarıram. Baxın, görün nə tapmışam. Necə maraqlı və rəngarəng kitabdır!

***Fotoqrafçı bayquş çəkdiyi fotoşəkillərlə meşəyə qayıtdı. O, bütün dünyanı gəzmiş və gəzdiyi yerlərin fotoşəkillərini çəkmişdi. Ən böyük xəyalı meşədə fotosərgi açmaq idi. Bayquş fotoşəkillərin adını “Möhtəşəm Rənglər” qoydu. Nəhayət, onun xəyalı gerçəkləşdi. Fotosərgini açdı və bütün dostlarını ora dəvət etdi. Balaca dovşan fotoşəkillərlə çox maraqlanırdı və sərgiyə ilk gedən də o oldu. Şəkillərin hamısına maraqla baxırdı.***



Meşə yamyaşıl idi. Təpələr, palıd, çinar ağacları, hətta üzüm də yaşıl idi. Yamyaşıl çəmənlər, növbənöv yarpaqlar işım-işım işıldayırdı. **YAŞIL**

Payızda hər yer sarı rəngə bürünür. Qızılı yarpaqlar uerdə sevgi ilə uçuşurdu. Sarı gödəkçəli uşaqlar yağışın şən damcılarından qaçmağa çalışırdılar. **SARI**





Dəniz mavi idi, çox mavi... Aysberqlərin arasından keçən gəmilər dalğalarla oynayırdı. Yüzlərlə balıq dərin okeanlarda sevinclə üzürdü. Mavi buludlar dənizdə tullanan delfinlərlə qaçdı-tutdu oynayırdı. **MAVİ**





Buzlaqlarda Günəş batərkən hər yer çəhrayı rəngə bürünür. Günəş yenə də oyun oynayır. Dünyanı rənglərlə bəzəyir, hər tərəfə şəfəq saçır. Ağ ayılar çox gözəl görünürlər, morjlar da çəhrayı rəngdədir. **ÇƏHRAYI**

Bənövşəyi çiçəklərin üstündən isti külək əsirdi. Bənövşələr işıl-işıl parıldayır, xoş ətir saçırdı. Bənövşəyi paltarlı qızın bahar ətirli saçlarına bir çiçək qonmuşdu. Bu, Fotoqrafçı Bayquş üçün əla bir fürsət idi. **BƏNÖVŞƏYİ**



Bir sürpriz oldu!...

Dovşan Bayquşdan təəccüblə soruşdu: – Bəs qırmızı hanı?

Mən onu sərgidə görə bilmədim. Bayquş dovşanla zarafat etmək istədi və arxasında gizlətdiyi səbəti çıxarıb dedi:

– Sürpriiiiz! Bu da qırmızı.

Qırmızı çiçəklərlə, meyvələrlə dolu bir səbət göstərib dedi:

– Sən də yemək istəyirsən?

**QIRMIZI**





***Bayquş sərginin son hissəsində öz əlləri ilə çəkdiyi xüsusi bir şəkil qoymuşdu.***

***Göyqurşağından çəhrayı çiçəklərdən hörülmüş böyük bir yelləncək asmışdı.***

***Bütün dostlarını sıra ilə bu yelləncəyə düzmüşdü.***

***Dovşan sevinclə səsləndi: – Heyy! Burada mənim də şəklim var.***

***Dovşan bu gözəl sərgiyə görə Bayquşa təşəkkür etdi və dedi:***

***– Rəngarəng dünyada yaşadığımız üçün çox şanslıyıq!***

# Dünyanın ən qədim, sirli və qeyri-adi kitabxanası



*Bu gün dünyanı heyrətə salan kitabxanaların necə formalaşması çoxlarında maraq yaradır. O zamanlar, yəni eradan əvvəl II minillikdə mixi yazılar artıq diplomatiyanın dilinə çevrilmişdi. Misirdə, Assuriyada, Şumerlərdə saray yazıları mixi üsulla qeyd olunur və saxlanılırdı. Sonradan bu qədim və maraqlı fonda malik olan kitabxanalar işğallar nəticəsində dağıdıldı. Amma qazıntılar zamanı aşkar edilən əlyazmaların mövzu və ruhunun, demək olar ki, eyni olması üzə çıxdı.*

## İSGƏNDƏRİYYƏ

Əziz oxucular, qədim kitabxanalardan danışmışikən Misirin, xüsusən də, İsgəndəriyyənin adını çəkməmək olmaz. Mən də bunu nəzərə alıb, sizlərə elə buradan – bu möhtəşəm, möcüzəli kitabxanadan danışacağam.



Müasir Misirdə qədim İsgəndəriyyənin ən mühüm simvollarından birini canlandırmaq cəhdi ilə təkcə kitab kolleksiyası ilə deyil, həm də binanın gözəlliyi və simvolizmi ilə heyran qoyan kitabxana yaradılmışdır. Yeni İsgəndəriyyə Kitabxanası kimi tanınan kitabxananın (Maktabat al-İskandariyah) tamamlanması təxminən 25 il çəkdi. IV əsrdə dağıdılmış qədim İsgəndəriyyə Kitabxanasının yerində bu kitabxananın yaradılması ideyası 1970-ci illərin ortalarında İsgəndəriyyə Universitetinin bir qrup müəllimi tərəfindən yaranıb. Onların səyləri sayəsində layihə Misir, Səudiyyə Ərəbistanı, İraq, Birləşmiş Ərəb Əmirlikləri, UNESCO və bir sıra digər hökumət və təşkilatların hökumətləri tərəfindən maliyyələşdirilib. 1988-ci ildə binanın təməl daşı qoyulub. Tikinti layihəsi UNESCO-nun memarlıq müsabiqəsində qalib gələn dünyaca məşhur Norveç memarlıq şirkəti Snohetta tərəfindən idarə olunub. Kitabxananın tikintisi 2001-ci ildə başa çatdırılıb, 2002-ci ildə isə təntənəli açılışı olub. Kiçik bir körfəzdə – Aralıq dənizi sahilində yerləşən kitabxana günəş diski formasına malikdir. Cənub tərəfdə dairəvi tikili ucaldılmış, şimal tərəfdə isə dənizə tərəf əyilmişdir. Bənzər bir forma qədim Misir günəş tanrısı Ra-nın şərəfinə seçilmişdir.





Kitabxananın əsas oxu zalında gün ərzində təbii işıq gətirən günəş saatı formalı şüşə dam var. Dünyanın ən böyük salonlarından biri olan zalın sahəsi 70 min kvadratmetrdir. Kitabxananın xarici divarları boz Asvan qranitlə üz-üzədir. Onlar 120 müxtəlif yazı sistemində yazılarla həkk olunub. Girişin yaxınlığında dənizdə tapılmış II Ptolemeyin heykəli dayanır. Kitabxanada ərəb, ingilis və fransız dillərində kitablar var. İsgəndəriyyə kitabxanası 8 milyona yaxın kitab yerləşdirməyə qadirdir. Burada gözdən əlillər, uşaqlar və yeniyetmələr üçün xüsusi zallar var.





Kitabxanada elm tarixi muzeyi, planetarium, əlyazmaların bərpası laboratoriyası, sərgi salonları, konfrans zalları və s. vardır. Bu gün İsgəndəriyyə Kitabxanası özünün ifadəli memarlığı ilə insan şüurunun böyüklüyünü sübut edir və müasir insana bir vaxtlar Evklid və Arximedin məskəni olan ən mühüm qədim elmi mərkəzlərdən birini xatırladır.

İncəhörüm səyahətdə



# BƏKKAR KİTABXANADA

Bəkkar kitabxanaya gedəndə yolda Həmmam və Həssunə ilə rastlaşdı. Salamlaşdıqdan sonra Həmmam Bəkkarı onlarla oynamaq üçün çağırdı. Bəkkar üzrxahlıq edib dedi:

– Mən kitabxanaya gedirəm.

Bəkkarın dediklərinə təəccüblənən Həmmam Həssunədən soruşdu:

Bəkkar kitabxanada oğlan və qızların sakit-sakit oturub, həvəslə oxuduqlarını gördü. Dənizin dərinlikləri haqqında gözəl bir kitab seçdi və açıb oxumağa başlayan kimi dalğıc olduğunu təsəvvür etdi: “Bəkkar dənizin dibinə endi, orada rəngarəng, gözəl balıqlara və mərcanlara tamaşa etdi. Qorxulu köpək balıqları və balinalarla rastlaşdı, bir mehriban delfinin belinə mindi. Kitabın sonunda onların hamısı ilə vidalaşdı və söz verdi ki, bir də yanlarına gələcək.”

Bəkkar bu gözəl kitabı yerinə qoyub, meşə heyvanları haqqında başqa bir kitab götürdü. Oxumağa başlayan kimi özünü meşədə gəzən bir səyyah təsəvvür etdi: “Bəkkar nadir quşlara və qəribə bitkilərə tamaşa etdi. Birdən yırtıcı şirlərin qarşısında olduğunu gördü. Sonra ağıllı şimpanze meymunları onu böyük və gözəl ağaclar arasında gəzdirdilər. Kitabın sonunda bütün heyvanlarla vidalaşdı və söz verdi ki, bir də yanlarına gələcək.”

“Hələ başqa bir kitab da oxumağa vaxtım var,” – düşünərək, meşə haqqındakı kitabı yerinə qoyub, kosmos haqqında başqa bir kitab götürdü. Oxumağa başlayan kimi özünü kosmonavt təsəvvür etdi: “O, ulduzlar və planetlər arasında yeni bir raket sürdü. Kosmosdan gördüyü Yer kürəsinin gözəlliyi onu valeh etmişdi. Təbii ki, kosmik gəmi ilə kitabxananın yanında Yerə endi.”

Bəkkar kitabxanadan çıxanda şad görsənirdi. Həmmam və Həssunə ona təəccüblə baxaraq, bir-birindən soruşdular:

– Nə üçün Bəkkar bu qədər şaddır?!

*Bu mənəm – İncəhörüm. Yenidən görüşünüzdəyəm. Havalar isti olsa da, durmaq-dayanmaq bilmədən sizlər üçün məlumatlar topladım. Roma filosofu Epiktet deyib ki, hər bir cəmiyyətdə hər şeydən əvvəl elm və əxlaqı öyrənmək lazımdır. Biliyə yiyələnib, elm öyrənməyin yolu isə elə elm ocaqlarından keçir.*

*Məktəb şagirdin ikinci evidir və bizə kitabların içindən əldə etdiklərini öyrətməklə yanaşı, mənəvi dəyərlərimizlə, ictimai həyatımızla da tərbiyə edir. Ancaq insanın şəxsiyyət kimi formalaşmasında təkcə məktəblərin deyil, kitabxanaların da rolu əvəzsizdir. Kitabxanalar tarixən cəmiyyətin maariflənməsində əvəzsiz rol oynayıb. Lakin insanlar kitablara təkcə savad, məlumat mənbəyi kimi deyil, həm də mənəvi istirahət vasitəsi kimi yanaşıblar.*



“Bəkkar kitabxanada”. Muxtarzadə Lamiyə (10 yaş)



## Gəlin birgə oxuyaq

# YENİ KİTABLAR BİZİM RƏFİMİZDƏ




Bu kitabda Rəşid bəy Əfəndizadənin uşaqlar üçün yazılmış şeirləri, kiçik hekayələri, pyesləri toplanıb.




***ÖMƏRLƏ BİR QUTU MACƏRA***

Bu seriya kitablarda rəhbər elm adamlarını daha yaxından tanımaq üçün həyəcanla dolu zaman səyahətinə çıxmağa hazırsınızmı?




Мейзи Хитчинс мечтает о захватывающей жизни знаменитого детектива, только вот пока что она обычная девочка, живущая с бабушкой. Бабушка внучку любит, но уж очень много времени уходит на беготню по её поручениям. Однако никто не мешает Мейзи решатъ детективные загадки по дороге… Тем более что Лондон XIX века полон тайн!




**YER ÜZÜ NAĞILLARI**

Nağıllar nə gözəldir,
Həyat da bir nağıldır, nağıllar da həyatdır.
İnəklər nağıllarda danışar,
Qar dənələri nağıllarda düşər...
Yosun heç danışarmı?
Suiti düşünərmi?
Quşcuğazlar məktəbi olarmı?
Əgər nağıldırsa, olur...
Nağılları çox sevər bütün uşaqlar,
Söz aramızda, nağıllar da
Uşaqları çox sevər...







Вы держите в руках удивительную книгу! Обучающий игровой тренажёр – это уникальная технология, разработанная детскими психологами, которая улучшит память, внимание, мышление, логические способности и подготовит детей к школе!




Это сборник рассказов известного современного писателя Станислава Востокова. С мягким юмором он описывает жизнь в современной деревне, простых людей и родную природу.



# Biliyinlə qazan



Hansı ağacın gövdəsi ağdır?

İnsan əli ilə tikilmiş quş evi necə adlanır?

Nəsli kəsilməkdə olan heyvanların adlarına harada rast gəlirik?

Yer kürəsini ikiyə bölən xətt ... adlanır

Daim mühafizə olunan ərazi necə adlanır?

Hansı heyvan suyun üstündə ev qura bilər?

Ən məşhur karikaturaçı kimdir?

Kitabxanada hər bir tələbənin bir kartı var. Və bütün kartlar... adlanır



Ən gülməli və ən bacarıqlı oyun hansıdır?

Harri Potter hansı heyvanın dilində danışırdı?

Timsah və çamadanın oxşarlığı nədədir?

Bu fənn məktəbdə şagirdlərin ölkələr və dünya haqqında öyrəndikləri bir mövzudur

Ələddin uçmaq üçün hansı sehrli əşyadan istifadə edir?

Hansı quşun dimdiyi altında dəri çantası var?

Dəvəquşu parazitlərdən qurtulması üçün nə edir?

Məktəblilər coğrafiya dərsində xəritəni necə doldururlar?

# Bəzən balıqlar da ağaclarda yaşaya bilir






Hər şeylə maraqlananlar üçün




Necəəə?..

Salam dəyərli dostlar, bu mənəm – İncəhörüm. Siz artıq məni tanımaqla bərabər, mənim maraqlarımı da yaxşı bilirsiniz. Sevimli məşğuliyyətlərimdən biri də qeyri-adi yazıları oxuyub, araşdırıb, bildiklərimi sizinlə bölüşməkdir. Heç düşünmüsünüz-mü, mən belə dəyərli faktları haradan əldə edirəm? Axı mənim evim kitab rəfləridir. Bildiyiniz kimi mən kitabların içində yaşayıram. Sizlər də oxuyaraq öyrəndiklərinizi bizə jurnalın elektron ünvanına yazaraq göndərə bilərsiniz. Elə isə, sizdən məktublar alana qədər gəlin siz dostlarımıza olduqca qəribə, bir o qədər də gülməli görünən bir faktı danışım.

Təsəvvür edirsinizmi, sevdiyiniz ağaca dırmanmısınız, bu anda görürsünüz ki, digər budaqdan bir balıq sizə baxır. Bəli, bu mümkündür. Sürgü balıqları da daxil olmaqla, labirint balıqları oksigensiz suda yaşamağı öyrənmişlər. Onlar hətta xüsusi bir tənəffüs orqanı ilə – başlarında, gözlərinin arasında yerləşən labirint əldə edirlər. Balıqlar suyun səthindən yuxarı hava ilə nəfəs alır və onu labirintdə sıxırlar. Sürünənlər sıxılmış havadan oksigeni alır və yumurta qoyduqları qabarcıq şəbəkələri qururlar. Onlarda əsasən üst gövdə zeytuni boz rəngə çalır, digər hissələr isə müxtəlif rəngli ləkələr və zolaqlar ola bilər. Qarın hissəsi isə, adətən, gümüşüdür.

Bəzən insanlar hətta ağacların ən hündür budaqlarında belə canlı balıqlar tapır və bunu balıqların özlərinin etdiklərini düşünürdülər. Ancaq 1927-ci ildə bir tədqiqatçı balıqların öz iradələri ilə zirvəyə çıxmadığını öyrəndi. Deməli, balıqlar çox vaxt suyun səthinə yaxın üzdükləri üçün quşlar tərəfindən tutulur, ovlarını başqa gün yemək üçün budaqların arasında gizlədir, sonra isə onu unudurlar.

Beləliklə, sürgülər uzun müddət susuz qala bildikləri üçün, bir neçə gün ağaclarda "yaşayırlar".



Sürgülər müstəqil olaraq bir su hövzəsindən digərinə sürünə bilir. Bu, çox vaxt quraqlıq dövründə, yerli göl dayazlaşdıqda baş verir. Adətən, bir neçə balıq bir anda su axtarışına çıxır.

Bu balığın iki əsas təbii düşməni var: rif balığı və su ilanı. Ancaq balığın özü ilbizlərin əla ovçusudur, onun sevimli ləzzəti həşəratlar və kiçik xərçəngkimilərdir. İlbizi evindən çıxarmaq üçün tullanan ayağın xaricə çıxmasını gözləyir və ildırım sürəti ilə onu qoparır.

Dostlar, onu da bilirəm ki, soruşacaqsınız ki, onları yemək olarmı?

Cavab çox qeyri-müəyyəndir. Bu tamamilə yeməli balıq olsa da, yerli əhali arasında tələbat yoxdur, çünki hətta ağaclara dırmaşa bildiyi üçün onu unikal hesab edirlər.

Məlumdur ki, balıqlar öz mağaralarını tikirlər, orada hava üçün xüsusi kameralar və ya çantalar təchiz edirlər. Aşağı gelgit zamanı oksigen ehtiyatlarını artırmaq üçün tullananlar böyük bir udum hava udur, onu yuvalarına aparır və bu kameraya buraxırlar. Bu davranış yumurtaların düzgün inkişafı üçün xüsusilə vacibdir, çünki onlar, adətən, eyni kameranın tavanına qoyulur. Beləliklə, erkək palçıqlı yumurtaları qorumaqla yanaşı, inkişaf etməkdə olan yumurtaları nəmli, oksigenlə zəngin bir mühitlə təmin edir. Bu yaxınlarda yapon tədqiqatçıları aşkar etdilər ki, erkək palçıqlı sürfələr yumurtadan çıxmağa hazır olduqda, qəsdən bu kameranı su basır və beləliklə, nəslin yüksək gelgit zamanı yuvanı tərk etməsinə imkan verir.

Bu fakt sizi də heyrətə gətirdimi?.. Elə isə, siz də oxuduğunuz qeyri-adi faktları bizimlə paylaşın. Paylaşın ki, jurnalımızın oxucuları da oxuyub xəbərdar olsun. Axı insan oxumaqla maariflənir.



Azərbaycan xəritəsinə diqqətlə baxsanız, görərsiniz ki, o qanadlarını açıb şığıyan qartala oxşayır. Onun başı Abşeron yarımadasıdır. Xəzər dənizi sanki ucsuz-bucaqsız səmadır. Xəzərin lap sahilində Bakı şəhəri yerləşir. Bura neft səltənətidir. Qartalın bir qanadı Lənkaran-Astara şəhərinin yerləşdiyi limonlu, çaylı, portağallı diyarıdır. O biri qanad meyvə bağları ilə bol olan Quba-Qusar rayonlarıdır. Quşun bədəni pambıq plantasiyaları ilə şöhrət tapmış, torpağı bərəkətli Muğan, Şirvan və Qarabağ torpağıdır.

***Mətn necə xarakter daşıyır?***

A) Məlumat verir
B) Gülüş doğurur
C) Tərbiyəvi-tənqidi mətndir
D) Faktlara əsaslanir

## RAYONLARIMIZ

- *Cədvəldəki hecalardan siyahıdakı rayonların adını müəyyənləşdirin.*
- *Birinin adı siyahıda yoxdur.*
- *Həmin rayonun adını müəyyənləşdirin.*
- *Hər bir rayonun hecalarını eyni rəngə boyayın.*

| | | | | | |
|---|---|---|---|---|---|
| QU | AS | KÜR | KƏN | QU | LA |
| ZA | LE | TA | Gİ | MA | RAQ |
| LA | ZƏN | SAL | SAR | RA | Lİ |
| BA | TA | QA | DƏ | MİR | KƏL |
| LI | LAN | RİK | BA | LA | YIL |
| ÇİN | CƏB | İ | BƏ | MİŞ | CƏR |

*Cədvəldə olmayan:*

*ZƏNGİLAN ASTARA KƏLBƏCƏR ZAQATALA LAÇIN QAZAX*
*MASALLI LERİK QUBA QUSAR BALAKƏN KÜRDƏMİR*





## HƏRF-TAPMACA

Ortadakı xanalara elə bir hərf yazın ki, sola doğru oxunduqda bir söz, sağa doğru oxunduqda isə başqa söz alınsın.

Oxuma istiqaməti ← □ → Oxunma istiqaməti

**Nümunə**

← o →

MƏLƏ[K]İVİ

| | | |
|---|---|---|
| ƏNİZƏ | □ | IRMAN |
| LİBOMOTV | □ | RZU |
| RAGİ | □ | İGARAN |
| KƏLÜ | □ | ƏSMİK |
| TƏNAM | □ | KİNÇİ |
| ƏNA | □ | ADİR |
| QACANAYA | □ | URNA |
| AHATŞ | □ | STİRAHƏT |

Xanalardakı hərfləri birləşdirdikdə vaxtilə işğal altında olan bir şəhərimizin adı oxunar.

**O, hansı şəhərdir?**

□□□□□□□□

## RƏNGLƏRİN ŞİFRƏLƏRİ

| Rəng | |
|---|---|
| (mavi) | = Ec Bb Bd Df |
| (sarı) | = __ __ __ __ |
| (bənövşəyi) | = __ __ __ __ __ __ __ __ __ |
| (göy) | = __ __ __ |
| (qırmızı) | = __ __ __ __ __ __ __ |
| (narıncı) | = __ __ __ __ __ __ __ |
| (qəhvəyi) | = __ __ __ __ __ __ __ |

| | a | b | c | d | e | f |
|---|---|---|---|---|---|---|
| A | ə | l | k | z | y | ö |
| B | ü | a | r | v | ğ | x |
| C | r | t | ı | c | d | m |
| D | l | g | c | h | b | i |
| E | f | k | m | e | s | u |
| F | n | ç | q | ş | ğ | ç |



## *Kitab oxumaq*

Elmir kitab oxumağa çox həvəsli bir şagirddir. Oxuduğu son kitab 300 səhifəlikdir. Qoşqar ilk gün həyəcanla 100 səhifə oxuyub. Sonrakı 5 gün isə bərabər sayda səhifə oxuyub. Daha sonra da qalan 100 səhifəni oxuyub və kitabı tamamlayıb.

**Qoşqar ikinci gün neçə səhifə kitab oxuyub?**

# İNCƏHÖRÜMÜN EMALATXANASI

Mən kitab oxumağı çox sevirəm. Düzdür, hazırki dövrdə onlayn kitab və mətnlər oxumaq daha asanlaşıb amma, bütün bunlarla yanaşı, mən hər hansı əsəri kitabdan – kağızlar üzərində yerləşdirilmiş yazılardan oxumağı sevirəm və bundan xüsusi zövq alıram. Bəzən isə kitabda dayandığım və ya kiməsə ucadan oxumaq istədiyim yeri tez tapmaq problemi ilə qarşılaşıram.







Bu zaman əlfəcinlər nədənsə möcüzəvi şəkildə cildlər arasından düşür və həmin an əlimizdə olmur. Buna görə də, özüm müxtəlif əlfəcinlər düzəltməyə və onları evin oxumaq üçün nəzərdə tutulan yerlərində yerləşdirməyə qərar verdim. Və buna görə də fərqli əlfəcinlərin düzəldilməsi ilə maraqlandım. İnternetdə inanılmaz sayda seçim tapdım. İndi isə ən maraqlı tapıntıları sizinlə bölüşmək istəyirəm.

Gəlin birlikdə bu sevimli və faydalı kitab aksesuarlarını yaradaq. Mən əminəm ki, siz də mənim kimi öz işinizdən ilham alacaqsınız.












Heyranlıqla yaratdığımız əlfəcinlər – kifayət qədər möhkəm vərəqə yapışan çıxıntıları olan düz əlfəcinlərdir. Onu da qeyd edim ki, onları düzəltmək çox asandır.



Yuxarıda verilmiş oriqami kəpənəyi gözəl bir əlfəcindir.

Kəpənəyin arxa tərəfində bir növ cib, yəni kağız üçbucağı var, buna görə də, kitab səhifəsinin küncündə mükəmməl şəkildə yerləşdirilə bilər. Kitabı bağlasanız, onun yalnız alt qanadları görünəcək.




Yalnız səhifəni deyil, həm də dayandığınız xətti göstərən əlfəcinlər də vardır.









**İlham alın, yaradın və əlbəttə ki, oxuyun!**

Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto:
Fərəh Kazımlı (Erudit liseyi)



F. Köçərli adına Respublika Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 - 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

web: www.clb.az
facebook: fb.com/childlibazerbaijan
twitter.com/childlibaze
instagram: childlibazerbaijan
youtube: childlibazerbaijan

# Göy Qurşağı

UŞAQ VƏ YENİYETMƏLƏR ÜÇÜN JURNAL
№ 04 (80) / 2023



Baş redaktor: Şəhla Qəmbərova
Redaktor: Aynur Turan
Korrektor: İlahə Quliyeva
Bədii tərtibat: Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur. Xüsusi icazə olmadan jurnalın surətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalın üz qabığındakı foto:
Fərəh Kazımlı (Erudit liseyi)

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

Jurnalımıza abunə olmaq üçün aşağıdakı ünvana müraciət edə bilərsiniz.
Ünvan: Bakı AZ1022 S.Vurğun küçəsi 88
Tel: (+99412) 5970879,
Faks: (+99412) 5970851.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.

Qeydiyyat nömrəsi:
№ 3926 – 06.11.2014 2006-cı ilin noyabrından çıxır.

Təşkilati dəstək:
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Təsisçi: F.Köçərli adına Respublika Uşaq Kitabxanası

web: www.clb.az
facebook: fb.com/childlibazerbaijan
twitter.com/childlibaze
instagram: childlibazerbaijan
youtube: childlibazerbaijan

